# Qarabağ üzərində suverenlik dövlət və ictimai mənafelərin birliyini göstərdi...

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## İctimai və dövlət maraqlarının müdafiəsi

**Azərbaycan xalqı tarixən dövlətçiliyinə bağlı olub və dövlətin qorunması, müdafiəsi uğrunda mücadilə verməkdən çəkinməyib. Azərbaycan xalqı ilə Azərbaycan dövlətinin maraqlarının üst-üstə düşməsi, dövlət, xalq,ordu, lider birliyi nəticəsində Azərbaycan dövlətinin öz torpaqları üzərində suverenliyi bərpa olunub.**



Heç şübhəsiz ki, Azərbaycan dövlətinin Qarabağ üzərində suverenliyini bərpa etməsi məsələsində dövlətlə ictimaiyyətin maraqları bir-biri ilə uzlaşıb, nəticədə xalqın gözlədiyi baş verdi, dövlət xalqın arzusundan çıxış etdi. Azərbaycanda böyük nümunə kimi ortaya qoyulan dövlət, xalq ,ordu, lider birliyinin möhtəşəm qələbəsi bütün dünyaya nümunədir. Xalqımızın Azərbaycan dövlətinə, Ali Baş Komandana, Azərbaycan Respublikası Silahlı Qüvvələrinə etimadı hər zaman tam olub və ordumuzun arxasında dağ kimi dayanıb. Məlumdur ki, Prezident İlham Əliyevin iradəsi və qayğısı sayəsində Azərbaycan Ordusu güclü maddi-texniki bazaya malikdir və ən müasir silah-sursatla təmin olunmaqdadır, biz ordumuzun nəyə qadir olduğunu bütün dünyaya göstərdik. İşğal faktı ilə barışmayan Azərbaycan xalqı hər zaman dövlətimizin, ölkə başçısının və ordumuzun ətrafında sıx birləşib. Biz bunu həm 2016-cı ilin aprelində baş verən hərbi əməliyyatlar, həm Tovuz döyüşləri, həm Vətən Müharibəsi, həm də 23 saatlıq lokal antiterror tədbirləri zamanı dərindən müşahidə etdik. Məhz Silahlı Qüvvələrimizin şücaəti nəticəsində torpaqlarımız işğaldan azad olundu.

### Dövlət-xalq-ordu-lider birliyi qalib gəldi...

Gerçəklik budur ki, müzəffər Ali Baş Komandan öz gücünə tarixi ədaləti bərpa etdi. Və bu da ölkədə xalq-ordu, lider birliyinin ən yüksək səviyyədə olmasının təzahürü idi. Təsadüfi deyil ki, böyükdən kiçiyə hər kəs Azərbaycanın haqq işinin bir parçası olmaq istəyirdi. 44 günlük Vətən müharibəsində Ali Baş Komandanın müəllifi olduğu "Dəmir Yumruq" ifadəsi xalqımızın birliyini və gücünü nümayiş etdirərək milli həmrəylik simvoluna çevrildi. Bu simvol Azərbaycan gənclərini, Azərbaycan xalqını milli müdafiə sahəsində hər zaman bir etdi, vahidliyimizi qorudu.

Azərbaycan dövlətinin Qarabağda suverenliyini bərpa etməsi tarixi hadisəsi dövlət, xalq ,ordu, lider birliyinin təntənəsi oldu. Bu birlik nəticəsində torpaqlarımızın ərazi bütövlüyünü pozan qüvvələr zərərsizləşdirildi, Ermənistanın işğalçı siyasətinə ağır zərbə vuruldu, Vətən müharibəsində düşmən üzərində qazandığımız qələbə tamamilə cilalandı və öz zirvəsinə ucaldı. Bu birlik nəticəsində tarixi qələbə çaldıq, adımızı yeni dünya tarixinə qalib xalq kimi yazdıq. Dövlətimiz tarixi nailiyyətə imza atdı. Dünya üçün "kor düyünə" çevrilən Qarabağ problemini Azərbaycan təkbaşına həll etdi, dövlət, xalq ,ordu, lider birliyi nəticəsində bu alov söndürüldü.

### Separatizmin məhvi və torpaqlarımızda suverenliyimizin təntənəsi...

Məlum olduğu kimi, Ermənistanın Azərbaycanın konstitusiya quruluşuna yönəlik hərbi təhdidlərinə qarşı ölkəmizin keçirdiyi lokal antiterror tədbirləri çox yüksək nailiyyətlərlə təxirə çevirilib. Antiterror tədbirləri nəticəsində Xankəndidəki separatçı xunta zərərsizləşdirildi, separatçı qurumlar, silahlı dəstələr tərkisilah edildilər, Ermənistanın Qarabağdakı qanunsuz hər birləşmələri ərazilərimizi tərk etdilər. "Arsax"ın 2024-cü ilin yanvar ayının 1-dən etibarən buraxılması barədə qərar qəbul edilib, Araik Arutyunyan başda olmaqla separtçı "liderlər"in bir neçəsi saxlanılaraq Bakıya gətirilib, barələrində cinayət işi açılıb. Bir sözlə, Azərbaycan Respublikasının Silahlı Qüvvələri tərəfindən 19-20 sentyabr 2023-cü il tarixində həyata keçirilmiş uğurlu lokal antiterror tədbirləri nəticəsində Azərbaycan Respublikasının suverenliyi tam bərpa olunub. Bu gün Qarabağda Azərbaycanın rəsmi dövlət qurumları fəaliyyətdədir, ərazidə Azərbaycan polisi xidmət edir. Bölgədə Azərbaycanın tibbi personalı çalışır və erməni əhaliyə səhiyyə xidməti göstərir. Bundan başqa ermənilər arasında da vətəndaşlıq almaq üçün müvafiq qurumlarımıza müraciət edənlər var. Başlıcası isə Qarabağdakı erməni əhalinin bizim cəmiyyətə reinteqrasiya prosesi başlayır. Əlbəttə, bu proses çox çətin və məsuliyyətlidir, burada ən böyük məsuliyyət Azərbaycan dövlətinin separatçıların əlindən azad etdiyi erməni əhalinin üzərinə düşür. Onlar çalışmalıdır ki, Azərbaycan dövlətinin humanist davranışlarına layiqincə cavab versinlər və etimadı doğrultsunlar. Qarabağda yaşayan ermənilərin mərkəzi hakimiyyətə tabe olması məsələsi Azərbaycan ictimaiyyətinin də dəstəyini qazanıb. Onlar Azərbaycan vətəndaşlığını qəbul edib rahat və firavan şəkildə Azərbaycan cəmiyyətinin bir parçası olmaq imkanı əldə ediblər. Azərbaycan dövlətinin bu istiqamətdə yürütdüyü siyasət hesab edirik ki, tolerant, multikultural, çox millətli Azərbaycan cəmiyyətinin ruhuna uyğundur.

Lokal antiterror tədbirlərindən sonrakı vəziyyəti qiymətləndirərkən onu da deyə bilərik ki, artıq bölgəyə sülh, əmin-amanlıq gəlir və bunun da müəllifi Azərbaycandır. Lokal antiterror tədbirlərindən sonrakı vəziyyəti qiymətləndirərkən deyə bilərik ki, artıq bölgəyə sülh, əmin-amanlıq gəlir və bunun da müəllifi Azərbaycandır, Azərbaycan xalqıdır. Hesab edirik ki, bölgəni sülhə, əmin-amanlığa Azərbaycanda mövcud olan dövlət, xalq ,ordu, lider birliyi qovuşduracaq. Çünki bu birliyin əldə etdiyi tarixi nailiyyətlər, qələbələr bunu deməyə əsas verir. Azərbaycanın öz torpaqları uğurunda suverenliyini bərpa etməsi nəticəsində bütün Qafqazda sülhün təməli qoyulur.

*İradə SARIYEVA*

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**